# Azərbaycanda 2021-ci ilin birinci rübü üzrə sənaye haqqında arayış

**Qrafik 1. Ümumi daxili məhsulun bölgüsü (2021-ci il, yanvar-mart)**




2021-ci ilin yanvar-mart aylarında sənayedə 7.659,7 milyon manatlıq əlavə dəyər istehsal edilmiş, bu da ümumi daxili məhsulun 40,5%-ni təşkil etmişdir.

**Qrafik 2. Ümumi daxili məhsulun strukturu (2021-ci il, yanvar-mart)**




**Sənaye**

2021-ci ilin yanvar-mart ayları üzrə sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi (ümumi buraxılış) 10.996,2 milyon manat təşkil etmişdir.

**Qrafik 3. Sənayedə ümumi buraxılışın bölgüsü (2021-ci il, yanvar-mart)**




**Neft-qaz sənayesi** ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,9% azalaraq 7.716,0 milyon manat təşkil etmişdir.

**Qeyri-neft sənayesi** isə 3.280,2 milyon manat təşkil etmiş və ötən ilin müvafiq dövrünə nisbətən 11,9% artmışdır. Qeyri-neft emal sənayesi isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,9% artmışdır.

**Qrafik 4. Qeyri-neft sənayesinin artım tempi, %-lə (2021-ci il, yanvar-fevral)**




Qeyri-neft sənayesində artım əsasən əczaçılıq məhsullarının istehsalı (7,3 dəfə), dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı (4,8 dəfə), kompüter, elektron və optik məhsulların istehsalı (2,5 dəfə), maşın və avadanlıqların istehsalı (2,4 dəfə), mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı (2,2 dəfə), tütün məmulatlarının istehsalı (83,1%), maşın və avadanlıqların quraşdırılması və təmiri işləri (81,4%), kağız və karton istehsalı (32,5%), toxuculuq sənayesi məhsullarının istehsalı (27,8%), rezin və plastik kütlə məmulatlarının istehsalı (15,2%), elektrik

avadanlıqlarının istehsalı (14,1%), geyim istehsalı (10,8%), tikinti materiallarının istehsalı (10,0%), qida məhsullarının istehsalı (6,3%), metallurgiya sənayesi məhsullarının istehsalı (0,6%) sahələrində müşahidə olunmuşdur.

**Sənayenin struktur bölgüsü**

**Mədənçıxarma sənayesi**. Mədənçıxarma bölməsində istehsalın həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,5% azalaraq 7.005,8 milyon manat olmuşdur.

**Emal sənayesi.** Emal bölməsinin müəssisələri və fərdi sahibkarları tərəfindən əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə istehsalın həcmi 7,1% artaraq 3.223,4 milyon manat olmuşdur.

**Elektrik enerjisi sənayesi**. Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin müəssisələri tərəfindən istehsal əvvəlki ilin müvafiq dövrünə nisbətən istehsalın həcmi 1,3% azalaraq 683,5 milyon manat olmuşdur.

**Su təchizatı sənayesi**. Su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində ötən ilin müvafiq dövrü ilə müqayisədə istehsalın həcmi 2,4% artaraq 83,5 milyon manat olmuşdur.

**Qrafik 5. Sənayenin struktur bölgüsü (2021-ci il, yanvar-mart)**




**Emal sənayesinin alt sahələri üzrə göstəriciləri**

Emal sənayesində istehsal olunmuş məhsulun, o cümlədən alt sahələri üzrə istehsal olunmuş məhsulunun həcmi və artım tempi, eləcə də alt sahələr üzrə xüsusi çəkisi aşağıdakı cədvəldə qeyd olunmuşdur.

**Cədvəl 3. Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı (2021-ci il, yanvar-mart)**

| Emal sənayesinin sahələri | 2021-ci ilin yanvar-mart aylarında istehsal edilmişdir, milyon manat | 2020-ci ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə | Emal sənayes də xüsu çəkisi |
|---|---|---|---|
| **Cəmi emal sənayesi** | **3.223,4** | **107,1** | **100,0%** |
| Qida məhsullarının istehsalı | 1.068,5 | 106,3 | 33,1% |
| Neft məhsullarını istehsalı | 810,3 | 87,0 | 25,1% |
| Kimya sənayesi | 274,9 | 87,5 | 8,5% |
| Tikinti materiallarının istehsalı | 134,6 | 110,0 | 4,2% |
| Metallurgiya sənayesi | 133,5 | 100,6 | 4,1% |
| Tütün məmulatlarının istehsalı | 113,8 | 183,1 | 3,5% |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 111,1 | 181,4 | 3,4% |
| Toxuculuq sənayesi | 107,8 | 127,8 | 3,3% |
| İçki istehsalı | 95,8 | 86,9 | 3,0% |
| Rezin və plastik kütlə məmulatlarının istehsalı | 70,0 | 115,2 | 2,2% |
| Hazır metal məmulatların istehsalı | 62,0 | 88,5 | 1,9% |
| Maşın və avadanlıqların istehsalı | 47,4 | 2,4 dəfə | 1,5% |
| Elektrik avadanlıqlarının istehsalı | 37,3 | 114,1 | 1,2% |
| Geyim istehsalı | 28,0 | 110,8 | 0,9% |
| Kağız və karton istehsalı | 26,6 | 132,5 | 0,8% |
| Mebellərin istehsalı | 23,6 | 93,7 | 0,7% |
| Zərgərlik məmulatları, musiqi alətləri,idman mallarının və tibb avadanlıqlarının istehsalı | 16,6 | 165,4 | 0,5% |
| Mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 15,0 | 2,2 dəfə | 0,5% |
| Poliqrafiya məhsullarının istehsalı | 13,7 | 37,7 | 0,4% |
| Kompyuter, elektron və optik məhsulların istehsalı | 12,9 | 2,5 dəfə | 0,4% |
| Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 12,4 | 36,7 | 0,4% |
| Dəri və dəridən məmulatların,ayaqqabıların istehsalı | 5,3 | 4,8 dəfə | 0,2% |
| Əczaçılıq məhsullarının istehsalı | 1,5 | 7,3 dəfə | 0,0% |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 0,8 | 2,3 | 0,0% |

**Sənayedə əsas kapitala yönəldilmiş vəsaitlər**

Sənayedə neft sektoruna yönəldilmiş əsas kapitalın həcmi 2020-ci ilin müvafiq dövrünə nisbətən 6,2% azalaraq 1.355,8 milyon manat təşkil etmişdir.

Sənayedə qeyri-neft sektoruna yönəldilmiş əsas kapitalın həcmi ötən ilin eyni dövrünə nisbətən 1,7% azalaraq 202,2 milyon manat təşkil etmişdir.

Ümumi vəsaitin 65,9% sənaye sahələrinin inkişafına yönəlmiş, bu da 1.558,0 milyon manat təşkil etmişdir.

**Qrafik 6. Sənayedə əsas kapitala yönəldilmiş vəsaitlərin bölgüsü (2021-ci il, yanvar-mart)**

**1.558,0 milyon manat**




Sənayedə əsas kapitala yönəldilmiş vəsaitlərin 79,7% mədənçıxarma sənayesi, 16,5% emal sənayesi, 3,4% elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,3% su təchizatı, tullantıların təmizlənməsi və emalı sənayesinə yönəldilmişdir.

**Qrafik 7. Sənayedə əsas kapitala yönəldilmiş vəsaitlərin sahələr üzrə həcmi (2021-ci il, yanvar-mart)**




**Sənaye sahələrində çalışan işçilər**

2021-ci ilin yanvar-fevral aylarında ölkənin sənaye sahələrində çalışan muzdlu işçilərin orta siyahı sayı 214,5 min nəfər təşkil etmişdir.

İşçilərin 33,5 min nəfəri mədənçıxarma, 124,5 min nəfəri emal, 27,1 min nəfəri elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 29,4 min nəfəri isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində cəmləşmişdir.

**Qrafik 8. İşçilərin sayının sahə bölgüsü (2021-ci il, yanvar-fevral)**




**Qrafik 9. Sənayenin fəaliyyət növləri üzrə bir işçinin orta aylıq nominal əmək haqqı**
**(2021-ci il, yanvar-fevral)**




* İşçilərin sayı və əmək haqları bir ay gecikmə ilə təqdim olunur.